**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№345/7** **30 iyun 2022-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Etika, mübahisələr və intizam komissiyasının əsasnaməsinin və 2022-ci il üzrə iş planının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında yeni Komitələrin və Komissiyanın yaradılması və tərkiblərinin təsdiq edilməsi barədə" 2022-ci il 15 fevral tarixli 340/2 nömrəli qərarının icrasını təmin etmək məqsədi ilə Palatanın Şurası yanında Etika, mübahisələr və intizam komissiyasının əsasnaməsinin və 2022-ci il üzrə iş planının layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən Etika, mübahisələr və intizam komissiyasının əsasnaməsi və 2022-ci il üzrə iş planı təsdiq edilsin (əsasnamə və iş planı əlavə olunur).
2. Auditorlar Palatasının Şurası yanında Etika, mübahisələr və intizam komissiyasına (K.Hüseynov) tapşırılsın ki, rəhbərlik etdiyi komissiyanın əsasnaməsindən irəli gələn vəzifələrin və iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icrası təmin edilsin.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, üç gün müddətində bu qərarın, Etika, mübahisələr və intizam komissiyasının əsasnaməsinin və 2022-ci il üzrə iş planının mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**